# MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ SAHƏSİ ÜZRƏ 2012-Cİ İLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT

Monitorinq və qiymətləndirmə şöbəsi Təhsil Nazirliyinin mərkəzi aparatının struktur bölməsi olaraq, öz fəaliyyətini digər struktur bölmələri ilə qarşılıqlı əlaqədə qurmuşdur.

Cari hesabat ilində şöbə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərib:

1. Məktəbdaxili qiymətləndirilmə;
2. Milli qiymətləndirilmə;
3. Beynəlxalq qiymətləndirilmə;
4. Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə çərçivəsində (2009-2014-cü illər) Təhsilin idarə edilməsində təhsilalanların qiymətləndirilməsinin nəticələrindən istifadə komponenti;
5. Təhsil müəssisələrinin akkreditasiyadan keçirilməsi və lisenziya verilməsi məqsədi ilə qiymətləndirilmələrin aparılması;
6. "İstedadlı şagirdlər üçün xüsusi lisey siniflərinə şagird qəbulunun aparılması" və "İstedadlı şagirdlər üçün xüsusi lisey siniflərində oxuyan VI və VII sinif şagridlərinin qiymətləndirilməsi;
7. Ümumi və tam orta təhsil səviyyələri üzrə mərkəzləşdirilmiş qaydada yoxlama imtahanları;
8. Vətəndaşların müraciətlərinə baxılması;
9. Cari işlər.

Respublikanın ümumtəhsil məktəblərində yeni qiymətləndirmənin həyata keçirilməsi, məktəbdaxili və milli qiymətləndirmə sistemlərinin hazırlanması, ölkənin beynəlxalq qiymətləndirmə proqramlarında iştirakının təmin edilməsi məqsədilə yaradılmış şöbə son illər fəaliyyətini daha da genişləndirmişdir. Belə ki, şöbə ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin məktəbdaxili, milli və beynəlxalq qiymətləndirilməsi məsələləri ilə yanaşı, ümumi təhsil pilləsində keyfiyyətin idarəedilməsinin monitorinqi sistemlərini əhatə edən işlərin aparılmasını da öz fəaliyyət planına daxil etmişdir. Yaxın gələcəkdə bu prosesin təhsilin bütün pillələrini və müvafiq səviyyələrini əhatə etməsi nəzərdə tutulub.

**1. Məktəbdaxili qiymətləndirmə.** 11-16 yanvar 2012-ci il tarixlərində Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunda Monitorinq və qiymətləndirmə şöbəsinin əməkdaşlarının və beynəlxalq məsləhətçi Algirdas Zabulionisin iştirakı ilə Məktəbdaxili qiymətləndirmə standartlarının hazırlanması, buraxılış imtahanlarının fəlsəfəsi və texniki tərəfləri, təhsil standartlarının validliyi ilə bağlı təhsil işçiləri üçün seminarlar keçirilmişdir.

2012-ci ilin iyul-avqust aylarında Məktəbdaxili qiymətləndirmə qaydaları yeni ümumtəhsil kurikulumlarının tətbiqi ilə bağlı 2012-2013-cü tədris ilində 5-ci siniflərdə dərs deyəcək fənn müəllimləri üçün təşkil olunan təlim kurslarının tərkib hissəsi kimi öyrədilib və bu kursların monitorinqi keçirilmiş və nəticələri hazırlanmışdır.

Ümumi orta təhsil səviyyəsində məktəbdaxili qiymətləndirmənin aparılması üçün müəllimlər və şagirdlər üçün Azərbaycan dili, ədəbiyyat, riyaziyyat, tarix, həyat bilgisi və xarici dil fənlərindən məktəbdaxili qiymətləndirmə vasitələri hazırlanıb və çap olunub.

Ölkəmizin ümumtəhsil məktəblərinin kurikulum tətbiq olunan I-V siniflərində formativ qiymətləndirmənin aparılması üçün formativ qiymətləndirmə jurnalı çap olunmuş və yerlərə göndərilmiş və formativ qiymətləndirmə jurnallarının icrasının monitorinqi ilə bağlı Monitorinq və qiymətləndirmə şöbəsinin əməkdaşları yerlərdə bu prosesin monitorinqini aparmış və

nəticələr 17 noyabr 2012-ci il tarixində Təhsil naziri Misir Mərdanovun rəhbərliyi ilə keçirilən "Məktəbdaxili qiymətləndirmə: problemlər və vəzifələr" mövzusunda kollegiyada müzakirə edilmişdir.

Məktəbdaxili qiymətləndirmənin aparılması ilə bağlı qiymətləndirmə üzrə beynəlxalq ekspert Tomas Kolleqanla görüş keçirilib.

Eyni zamanda "Azərbaycan müəllimi" qəzetinin Monitorinq və qiymətləndirmə rubrikasında şagird nailiyyətlərinin qiymətləndirməsinə dair silsilə yazıları dərc olunmuşdur.

**2. Milli qiymətləndirmə.** 2012-ci ilin yanvar ayında beynəlxalq məsləhətçi Algirdas Zabulionis Milli Qiymətləndirmə tədqiqatının qiymətləndirmə vasitələrini hazırlayan ekspertlərlə seminar keçirərək onları istiqamətləndirmişdir. Aprel ayında Milli Qiymətləndirmə tədqiqatının qiymətləndirmə vasitələri - imtahan kitabçaları, şagirdlər, müəllimlər, valideynlər və məktəb direktorları üçün sorğu kitabçaları çap edilmiş və 09 aprel-15 may 2012-ci il tarixlərində Təhsil nazirinin 03.04.2012-ci il tarixli, 530 nömrəli əmrinə əsasən təsadüfi seçim ilə müəyyən edilmiş 300 ümumtəhsil məktəbində IV sinif şagirdləri ilə Azərbaycan dili və riyaziyyat fənləri üzrə qiymətləndirmə aparılıb. Məktəblərin seçimi elə aparılıb ki, paytaxtın mərkəzi və ətraf məktəbləri, ölkənin digər şəhər və rayonlarının mərkəz və ucqar kənd məktəbləri, lisey və gimnaziyaları əhatə edilsin. Tədqiqatda iştirak edən 9329 nəfər şagird imtahan kitabçası və sorğu anketini, onlara dərs deyən 499 nəfər sinif müəllimi, həmin şagirdlərin 8974 nəfər valideyni və 300 nəfər məktəb direktoru isə sorğu anketlərini cavablandırıb. Şagirdlər, müəllimlər, valideynlər və məktəb direktorları ilə anket sorğuları müxtəlif amillərin şagirdlərin təlim nailiyyətinə təsirini müəyyənləşdirmək üçün aparılıb.

2012-ci il milli qiymətləndirmə tədqiqatının əsas məqsədi yeni fənn kurikulumları üzrə təhsil alan IV sinif şagirdlərinin bilik və bacarıqlarının standartlara uyğunluğunu müəyyənləşdirməkdir.

Milli Qiymətləndirmə-2012 tədqiqatının nəticələri təhlil edilib. IV sinif şagirdlərinin Azərbaycan dili və riyaziyyat fənləri üzrə nəticələri öyrənilib və yekun hesabatı hazırlanıb.

Milli Qiymətləndirmə-2012 tədqiqatının nəticələri beynəlxalq ekspert Tomas Kolleqan ilə müzakirə olunub.

2013-cü ilin aprel ayında ümumtəhsil məktəblərinin IV siniflərində təhsil alan şagirdlərlə Milli Qiymətləndirmə-2013 tədqiqatının keçirilməsi nəzərdə tutulub. Bu qiymətləndirmənin əsas məqsədi ibtidai təhsil səviyyəsini yeni fənn kurikulumları əsasında bitirən şagirdlərin nailiyyətlərini qiymətləndirmək və nəticələri Milli Qiymətləndirmə - 2009 tədqiqatı ilə müqayisə etməkdir.

**3. Beynəlxalq qiymətləndirmə.** Monitorinq və qiymətləndirmə şöbəsi tərəfindən TIMSS 2011 və PİRLS 2011 Proqramlarının Ensiklopediyalarında Azərbaycana aid olan fəsillər hazırlanıb və 9-12 sentyabrda 2012-ci il tarixində dərc olunub.

11 Dekabr 2012-ci il tarixində Təhsil Nailiyyətlərinin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyasının TIMSS 2011 və PİRLS 2011 üzrə beynəlxalq hesabatın nəticəsi elan olunmuş və Monitorinq və qiymətləndirmə şöbəsi tərəfindən ictimaiyyət üçün geniş məlumat bülleteni hazırlanaraq edu.gov.az saytında yerləşdirilib.

**4. Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə çərçivəsində (2009-2014-cü illər) Təhsilin idarə edilməsində təhsilalanların qiymətləndirilməsinin nəticələrindən istifadə komponenti.** Magistr pilləsində təhsil nailiyyətlərinin ölçülməsi üzrə mütəxəssis hazırlığı üçün tədris proqramı (kurikulum) tərtib edilib. Təhsildə qiymətləndirmə və monitorinq ixtisası təsis edilib. Təhsildə qiymətləndirmə və monitorinq ixtisası üzrə tədris resurslarının hazırlanması üçün işçi qrupu yaradılıb və tədris resurslarının hazırlanmasına başlanılıb.

Təhsildə qiymətləndirmə və monitorinq ixtisası üzrə Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universitetində magistratura kursunda təhsil alan tələbələrlə tədris planı üzrə dərslər davam etdirilir.

Şöbənin Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə çərçivəsində (2009-2014-cü illər), Təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi və nəticələrindən istifadə olunması komponenti üzrə ildə 4 dəfə rüblük hesabat verilmişdir.

**5. Təhsil müəssisələrinin akkreditasiyadan keçirilməsi məqsədi ilə qiymətləndirilmələrin aparılması.** 02 mart 2012-ci il tarixində Azərbaycan Respublikası Təhsil nazirinin 11/192 nömrəli əmrinə əsasən Neftçala Peşə Məktəbinin, 11/193 nomrəli əmrinə əsasən Cəlilabad Peşə Liseyinin, 11/194 nömrəli əmrinə əsasən Mingəçevir şəhəri 10 nömrəli tam orta məktəbinin, 04 aprel 2012-ci il tarixində Azərbaycan Respublikası Təhsil nazirinin 11/271 nömrəli əmrinə əsasən Bakı Dövlət İqtisadiyyat və Humanitar Kollecinin, 11/281 nömrəli əmrinə əsasən Ağdam Peşə Məktəbinin, 05-07 aprel 2012-ci ildə Təhsil nazirinin 11/270 nömrəli əmrinə əsasən Ağdaş Dövlət Humanitar Kollecinin, Gəncə 1 saylı Peşə Liseyi və Yevlax Peşə məktəbinin, 11/282 nömrəli əmrinə əsasən Göyçay Peşə Məktəbinin, 16 aprel 2012-ci il tarixində Azərbaycan Respublikası Təhsil nazirinin 11/319 nömrəli əmrinə əsasən Lənkəran şəhəri V.Əliyev adına 4 nömrəli humanitar təmayüllü məktəbinin, 11/310 nömrəli əmrinə əsasən isə Lənkəran 6 nömrəli tam orta məktəb-liseyin, 20 aprel 2012-ci il tarixində Azərbaycan Respublikası Təhsil nazirinin 11/342 nömrəli əmrinə əsasən Bakı 1 nömrəli Peşə məktəbinin və Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının, 23 aprel 2012-ci il tarixində Azərbaycan Respublikası Təhsil nazirinin 11/354 nömrəli əmrinə əsasən Bakı 2 nömrəli Peşə Liseyinin, 03 may 2012-ci il tarixində Azərbaycan Respublikası Təhsil nazirinin 11/405 nömrəli əmrinə əsasən Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, 04 may 2012-ci il tarixində Azərbaycan Respublikası Təhsil nazirinin 11/403 nömrəli əmrinə əsasən Bakı Humanitar Kollecinin, 11/404 nömrəli əmrinə əsasən Abşeron – Ceyranbatan Peşə Liseyinin, 08 may 2012-ci il tarixində Azərbaycan Respublikası Təhsil nazirinin 11/426 nömrəli əmrinə əsasən Bakı Qızlar Universitetinin, 12 may 2012-ci il tarixində Azərbaycan Respublikası Təhsil nazirinin 11/425 nömrəli əmrinə əsasən Bakı Musiqi Akademiyasının, 14 may 2012-ci il tarixində Azərbaycan Respublikası Təhsil nazirinin 11/449 nömrəli əmrinə əsasən Bakı Neft Energetika Kollecinin, 11/450 nömrəli əmrinə əsasən Bakı 15 nömrəli Peşə Liseyinin, 11/451 nömrəli əmrinə əsasən Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının, 15 may 2012-ci il tarixində Azərbaycan Respublikası Təhsil nazirinin 11/442 nömrəli əmrinə əsasən Quba 2 nömrəli təbiət fənləri təmayüllü məktəb-liseyin, 11/440 nömrəli əmrinə əsasən Quba Dövlət Sosial – İqtisad Kollecinin, 18 may 2012-ci il tarixində Təhsil nazirinin 11/470 nömrəli əmrinə əsasən Bakı 18 nömrəli Peşə Liseyinin, 21 may 2012-ci il tarixində Təhsil nazirinin 11/484 nömrəli əmrinə əsasən Ağdam Peşə Məktəbinin, 22 may 2012-ci il tarixində Təhsil nazirinin 11/482 nömrəli əmrinə əsasən Qax Peşə Liseyinin, 11/483 nömrəli əmrinə əsasən Neftçala Peşə məktəbinin və Cəlilabad Peşə Liseyinin, 24 may 2012-ci il tarixində Təhsil nazirinin 11/496 nömrəli əmrinə əsasən Bakı 2 nömrəli Baza Tibb Kollecinin, 25 may 2012-ci il tarixində Təhsil nazirinin 11/513 nömrəli əmrinə əsasən Bakı şəhəri T. Abbasov adına 225 nömrəli tam orta məktəbinin, 26 may 2012-ci il tarixində Təhsil nazirinin 11/512 nömrəli əmrinə əsasən Quba şəhər A.Məmmədov adına 2 nömrəli təbiət fənləri təmayüllü məktəb-liseyin, Quba Dövlət Sosial – İqtisad Kollecinin, 11/517 nömrəli əmrinə əsasən Bakı şəhəri E.Tağızadə adına 164 nömrəli tam orta məktəbinin, 30 may 2012-ci il tarixində Təhsil nazirinin 11/523 nömrəli əmrinə əsasən Göyçay Peşə Liseyinin, 11/524 nömrəli əmrinə əsasən Bakı Qida Sənaye Kollecinin, 11/526 nömrəli əmrinə əsasən Azərbaycan Dövlət Dəniz Akademiyasının, 31 may

2012-ci il tarixində Təhsil nazirinin 11/525 nömrəli əmrinə əsasən Milli Aviasiya Akademiyasının, 05 iyun 2012-ci il tarixində Təhsil nazirinin 11/540 nömrəli əmrinə əsasən Odlar Yurdu Universitetinin, 09 iyun 2012-ci il tarixində Təhsil nazirinin 11/525 nömrəli əmrinə əsasən Azərbaycan Kooperasiya Universitetinin, 14 iyun 2012-ci il tarixində Təhsil nazirinin 11/556 nömrəli əmrinə əsasən Bakı 12 nömrəli Peşə Liseyinin akkreditasiyadan keçirilməsi məqsədi qiymətləndirmə aparılmışdır.

**6. "İstedadlı şagirdlər üçün xüsusi lisey siniflərinə şagird qəbulunun aparılması" və "İstedadlı şagirdlər üçün xüsusi lisey siniflərində oxuyan VI və VII sinif şagridlərinin qiymətləndirilməsi.** Azərbaycan Respublikası Prezidentinin 17.04.2006-cı il tarixli, 1414 nömrəli sərəncamı ilə təsdiq olunmuş "Xüsusi istedada malik uşaqların yaradıcı potensialının inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn konseptual xarakterli göstərişləri rəhbər tutaraq, Təhsil nazirinin 09.08.2012-ci il tarixli, "İstedadlı şagirdlər üçün xüsusi lisey siniflərinə şagird qəbulunun aparılması barədə" 1449 nömrəli əmrinə əsasən Respublikanın 8 (səkkiz) şəhər və rayonunun seçilmiş məktəblərində istedadlı şagirdlər üçün yaradılmış liseylərin V,VI,VII siniflərinə 07 sentyabr 2012-ci il tarixində müsahibələr, 08 sentyabr 2012-ci il tarixində isə qəbul imtahanları keçirilmişdir. 28 sentyabr 2012-ci il tarixində isə Təhsil nazirinin 09.08.2012-ci il tarixli, 1148 nömrəli əmrinə əsasən 2010-2011-ci illərdə həmin liseylərin V və VI siniflərinə eyni qaydada qəbul edilmiş xüsusi istedada malik VI və VII sinif şagirdlərinin nailiyyətlərinin izlənməsi məqsədi ilə qiymətləndirilmə həyata keçirilmiş, bacarıqlar üzrə təhlil edilərək həmin məktəblərə göndərilmiş və bu barədə "Azərbaycan müəllimi" qəzetində təhsil ictimaiyyətinə məlumat verilmişdir.

**7. Ümumi və tam orta təhsil səviyyələri üzrə mərkəzləşdirilmiş qaydada yoxlama imtahanları.** Azərbaycan Respublikası Təhsil nazirinin 05 dekabr 2011-ci il tarixli, 2016 nömrəli əmrinə əsasən 2012-ci ilin 28 yanvar – 17 aprel tarixlərində Respublikanın (Naxçıvan MR istisna olmaqla) bütün şəhər və rayonlarında 9 bölgə üzrə, bu bölgələrdə məskunlaşmış məcburi köçkün rayonlarını, Təhsil Nazirliyinin birbaşa tabeliyində, ali məktəblərin nəzdində olan tam orta təhsil məktəblərini və peşə liseylərini əhatə edən mərkəzləşdirilmiş qaydada yoxlama imtahanları keçirilmişdir.

Yoxlama imtahanlarının keçirilməsi üçün aşağıdakı tədbirlər həyata keçirilib:

- § İmtahanlara hazırlıq və imtahanların keçirilməsi ilə bağlı müvafiq əmrlər hazırlanmışdır;
- § Ümumi orta və tam orta təhsil məktəblərindən, peşə liseylərindən şagirdlərin siyahıları alınmış və bazaya daxil olunaraq hər bir şagird üçün 10 rəqəmli fərdi kod müəyyən edilmişdir;
- § Şagirdlərin imtahan verəcəyi mərkəzlər, otaqlar, oturacağı yerlər müəyyən edilmişdir;
- § Hazırlanmış siyahılar şagirdləri məlumatlandırmaq üçün rayon (şəhər) təhsil şöbələrinə (idarələrinə) və müvafiq təhsil müəssisələrinə göndərilmişdir;
- § Yerlərdən gələn düzəlişlər əsasında məlumatlar təkrar yoxlanılmış və siyahılar yekunlaşdırılmışdır;
- § Fənn işçi qrupları tərəfindən buraxılış sinif şagirdləri üçün hazırlanmış test bankı daha da təkmilləşdirilmiş, əlavələr edilmiş və çap edilmişdir;
- § Hər bir şagird üçün müvafiq sual kitabçası variantı müəyyən edilmişdir;
- § Test kitabçalarının və digər imtahan materiallarının hazırlanması prosesində məxfilik tam təmin olunmuşdur;

- 9.İmtahan nəticələrinin effektiv qiymətləndirilməsi məqsədi ilə proqram təminatı təkmilləşdirilmişdir;
- Pretest məqsədi ilə yoxlama imtahanlarının nəticələri ayrı-ayrılıqda təhlil edilib, istifadə olunan test kitabçalarındakı hər bir sualın muvəffəqiyyət faizi muəyyən olunmuşdur.

Peşə liseylərində və ümumtəhsil məktəblərində keçirilmiş yoxlama imtahanlarının nəticələri bir neçə istiqamətdə təhlil edilmiş və müvafiq nəticələr çıxarıldıqdan sonra Təhsil nazirinin 09.04.2012-ci il tarixli 11/290 nömrəli əmrinə əsasən 17.04.2012-ci il tarixində peşə liseylərində mərkəzləşdirilmiş qaydada buraxılış imtahanları aparılmışdır.

Ümumi və tam orta təhsil səviyyələri üzrə mərkəzləşdirilmiş qaydada yoxlama imtahanlarında 85622 nəfər XI sinif şagirdindən 80792 (94.36 faiz) nəfəri imtahanlarda iştirak etmiş və onlardan 33014 (4086) nəfəri yoxlama imtahanlarında müvəffəqiyyət qazanmışdır.

128931 nəfər IX sinif şagirdindən 117898 (91.44) nəfəri yoxlama imtahanlarında iştirak etmiş və onlardan 81139 (68.82) nəfəri yoxlama imtahanlarında müvəffəqiyyət qazanmışlar.
2011-2012- ci tədris ilində texniki peşə liseylərində keçirilmiş yoxlama imtahanlarında isə 4720 nəfər şagirddən 4415 (93.54) nəfəri imtahanlarında iştirak etmiş və buraxılış imtahanlarında isə 4375 nəfər iştirak edərək yekunda 2324 (50.09 faiz) nəfəri müvəffəqiyyət qazanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 19.04.2012-ci il tarixli 610 nömrəli Fərmanına əsasən "Ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə təhsilalanların biliyinin yekun qiymətləndirilməsi (attestasiyası)" Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən həyata keçirilir.

**8. Vətəndaşların müraciətlərinə baxılması.** Cari ildə Monitorinq və qiymətləndirmə şöbəsinə şagirdlərin ümumtəhsil məktəblərinə qəbulu və yerdəyişməsi, yoxlama imtahanlarında iştirak etmək, imtahan nəticələrinin yenidən yoxlanması, evdə təhsilə cəlb olunma, müxtəlif səbəblərdən yoxlama imtahanlarından azad olunma, xüsusi lisey siniflərinə şagird qəbulunun qiymətləndirilməsi və monitorinqinin nəticəsi və.s mövzuları əhatə edən 369 şikayət və ərizə, 1205 məktub daxil olmuşdur.

"Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikası Qanununun və Azərbaycan Respublikası Təhsil nazirinin "Vətəndaşların müraciətlərinə baxılması işinin səmərəliliyinin artırılması barədə" əmrinin tələblərinə uyğun olaraq, daxil olunmuş muraciətlərə baxılıb, müvafiq qərarlar qəbul edilərək cavablar göndərilib.

**9. Cari işlər.**

- 12 oktyabr 2012-ci il tarixində Təhsil naziri Misir Mərdanovun rəhbərliyi ilə "Məktəbdaxili qiymətləndirmə: problemlər və qarşıda duran vəzifələr" mövzusunda müşavirə iclası keçirilmişdir;
- 17 noyabr 2012-ci il tarixində Təhsil naziri Misir Mərdanovun rəhbərliyi ilə "2012/2013-cü tədris ilində V siniflərdə işləyəcək müəllimlər üçün keçirilmiş təlim kurslarının nəticələri" və "Məktəbdaxili qiymətləndirmə: problemlər və vəzifələr" mövzusunda kollegiya iclası keçirilmişdir;
- 28 noyabr 2012-ci il tarixində Bakı Pedaqoji Kadrların İxtisasartırma və yenidən hazırlanma İnstitutunda Monitorinq və qiymətləndirmə şöbəsinin müdiri Təranə Hacıyeva "Məktəbdaxili qiymətləndirmə: problemlər və vəzifələr " mövzusunda mühazirə demişdir.
- Hesabat ilində "Azərbaycan müəllimi" qəzetində yerləşən "Monitorinq və qiymətləndirmə" rubrikasında ümumi təhsil pilləsində məktəbdaxili, milli və beynəlxalq qiymətləndirmənin bu və digər problemləri ilə bağlı məqalələri dərc

edilmişdir. Eyni zamanda “Azərbaycan müəllimi” qəzetində, “Kurikulum” jurnalında, Kurikulum portalında, “Məktəbəqədər və ibtidai təhsil” jurnalında və Təhsil Nazirliyinin saytında həyata keçirilmiş tədbirlər və onların nəticələri ilə bağlı məlumatlar verilmişdir.

§ Elektron KİV-də “Qiymətləndirmə və monitorinq” mövzusunda gedən veriliş və müsahibələr:

- 31 yanvar 2012-ci il tarixində Azərbaycan Televiziyasının “Sabaha doğru” verilişində Monitorinq və qiymətləndirmə şöbəsinin müdiri Təranə Hacıyeva və şöbə əməkdaşlarının iştirakı ilə “Azərbaycanda keçirilən milli qiymətləndirmə tədqiqatları” mövzusunda dəyirmi masa keçirilmişdir;
- 24 oktyabr 2012-ci il tarixində Monitorinq və qiymətləndirmə şöbəsinin müdiri Təranə Hacıyeva İctimai televiziyanın “Səhər” verilişində “Qiymətləndirmə” mövzusunda müsahibə vermişdir;
- 02 noyabr 2012-ci il tarixində Monitorinq və qiymətləndirmə şöbəsinin müdiri Təranə Hacıyeva ANS TV –də “Məktəbdaxili qiymətləndirmə” mövzusunda çıxış etmişdir.